# Bakıda tarixin ən böyük Şahmat Olimpiadası keçiriləcək



## Planetin ən güclü zəka sahibləri Azərbaycanda yarışacaqlar

**Gələn ay Bakı daha bir möhtəşəm idman tədbirinə evsahibliyi edəcək. Sayca 42-ci Ümumdünya Şahmat Olimpiadası paytaxtımızda təşkil olunacaq. Bakıda tarixin ən böyük Şahmat Olimpiadası keçiriləcək. Belə ki, sentyabrın 1-dən 14-dək Beynəlxalq Şahmat Federasiyasının (FİDE) ən vacib tədbirində rekord sayda - 176 ölkədən 182 kişi və 142 qadın komandası mübarizə aparacaq. Bu haqda qərar 2012-ci ildə FİDE-nin Türkiyənin İstanbul şəhərində keçirilən 83-cü konqresində qəbul olunub.**

Dünyanın ən nüfuzlu şahmat tədbiri ilk dəfə 1924-cü ildə Fransanın paytaxtı Parisdə təşkil edilib. Həmin gün Beynəlxalq Şahmat Federasiyasının - FİDE-nin yaranması haqda qərar qəbul olundu. FİDE 1927-ci ildə Londonda keçirilən birinci rəsmi Olimpiadanı təşkil etdi. Həmin ildən indiyə qədər 41 Ümumdünya Şahmat Olimpiadası təşkil olunub. Bakıda keçiriləcək Olimpiada 42-ci olacaq.

Belə bir mühüm turnirin ölkəmizdə təşkil olunması təsadüfi deyil. Çünki respublikamız zəngin şahmat ənənələri ilə seçilir. Ötən əsrin yetmişinci illəri Azərbaycan şahmatının tarixində dönüş mərhələsi kimi yadda qaldı. O dövrdə şahmata xüsusi diqqət yetirilir, çoxsaylı şahmat məktəbləri açılır, müxtəlif səviyyəli turnirlər keçirilir, nəticədə yeni yetmələr və gənclər arasında şahmata maraq artır, bu idman növü get-gedə populyarlaşırdı. Azərbaycanlı şahmatçılar həm keçmiş Sovet İttifaqı, həm də dünya miqyaslı turnirlərdə iştirak edib qazandıqları nəticələrlə xalqımızı sevindirirdilər.

Milli müstəqilliyimizin bərpasından sonra Azərbaycan şahmatının yeni inkişaf mərhələsi başladı. 1990-cı illərin əvvəllərində ölkəni bürümüş böhran bütün sahələrdə olduğu kimi, idmanın inkişafına da imkan vermirdi. Bununla belə, sovetlər dövründə əldə edilmiş təcrübədən yararlanaraq şahmatçılarımız beynəlxalq miqyaslı turnirlərə qatılıb Azərbaycanı layiqincə təmsil etməyə çalışırdılar. Belə ki, 1992-ci ildə qızlardan ibarət yığma komandamız ilk dəfə Filippində keçirilən Dünya Şahmat Olimpiadasında iştirak edib 67 komanda arasında 7-ci yeri tutdu. Həmin komanda bir il sonra Macarıstanda təşkil olunan Avropa komanda çempionatında 3-cülüklə kifayətləndi.

Şahmatın inkişafının hüquqi bazasını yaratmaq üçün Prezident İlham Əliyevin 5 may 2009-cu il tarixli sərəncamı ilə "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" təsdiq edildi. Əsas məqsədi şahmat sahəsində dövlət siyasətinin həyata keçirilməsindən, şahmatın və onun infrastrukturunun daha da inkişaf etdirilməsindən, beynəlxalq səviyyəli şahmatçıların, məşqçilərin, hakimlərin və digər şahmat mütəxəssislərinin hazırlanmasını təmin etməklə ölkənin sahə üzrə beynəlxalq miqyasda rolunun artırılmasından ibarət olan bu sənədin müddəalarına uyğun olaraq, müxtəlif bölgələrdə şahmatın inkişafı naminə konkret tədbirlərə start verildi. Yeri gəlmişkən, Azərbaycan FİDE-nin 187 üzvü arasında şahmatın inkişafına dair xüsusi Dövlət Proqramı qəbul etmiş yeganə dövlətdir.

Göstərilən səylər, atılan addımlar nəticəsində ölkəni beynəlxalq turnirlərdə uğurla təmsil edən istedadlı şahmatçılar yetişdi. Azərbaycanlı beynəlxalq qrossmeysterlərin və FİDE ustalarının dünya miqyaslı yarışlarda əldə etdikləri uğurlar ölkəmizə beynəlxalq şahmat aləmində böyük nüfuz qazandırdı. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, son illərdə kişi şahmatçılardan ibarət seçmə komandamız iki dəfə Avropa komanda çempionatında birinci yeri tutmuşdur. "SOCAR Azerbaijan" klubu isə iki dəfə Avropa Çempionlar Kubokunu qazanmışdır. Bununla şahmatçılarımız həm ölkə, həm də Avropa şahmat tarixinə yeni qızıl səhifə yazdılar. Son 9 ildə kişi şahmat komandamız dörd qitə çempionatında iştirak etmiş, bu turnirlərin dördündə də medal qazanmışdır. İndiyədək Avropanın heç bir ölkəsi belə bir nəticə göstərə bilməmişdir.

Azərbaycan şahmatının qələbələrlə dolu müasir tarixi beynəlxalq idman ictimaiyyətinin diqqətindən kənarda qalmır. FİDE ardıcıl olaraq beynəlxalq turnirlərin təşkilini ölkəmizə həvalə edir. 2002-ci ildə Bakıda gənclər arasında Avropa çempionatı, 2003-cü ildə Naxçıvanda gənclər arasında dünya çempionatı keçirildi. 2005-ci ildə Şəkidə, 2007-ci ildə Bakıda dünyanın tanınmış qadın şahmatçılarının iştirakı ilə beynəlxalq turnirlər təşkil olundu. 2008-ci ildə Bakı FİDE Qran-pri seriyasından olan ilk turnirə evsahibliyi etdi. Son 3 ildə beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə Şəmkirdə həsr olunan beynəlxalq turnirdə dünyanın aparıcı ölkələrindən güclü zəka sahibləri mübarizə apardılar.

Nəhayət, sentyabrın 1-də Bakıda start götürəcək Ümumdünya Şahmat Olimpiadası ölkəmizin şahmat üzrə təşkil etdiyi ilk böyük və nüfuzlu tədbirdir. Demək olar ki, paytaxtımız mühüm idman tədbirinə tam hazırdır. 2013-cü il 14 fevral tarixində Prezident İlham Əliyevin sərəncamına əsasən 2016-cı ildə Ümumdünya Şahmat Olimpiadasının Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb. Turnirin Təşkilat Komitəsi yarışın yüksək səviyyədə keçirilməsini təmin etmək üçün bütün tədbirləri görmüşdür. Paytaxtın ən gözəl guşələrinin birində yerləşən "Baku Crystall Hall" planetin adlı-sanlı şahmatçıları arasında zəka mübarizəsinə şahidlik edəcək. 42-ci Ümumdünya Şahmat Olimpiadasının açılış və bağlanış mərasimləri isə sentyabrın 1-də və 13-də Milli Gimnastika Arenasında keçiriləcək. Azərbaycanı Olimpiadada 6 komanda təmsil edəcək. Bunlardan 3-ü kişi, 3-ü isə qadın komandalarıdır. Hər komandanın tərkibində 5 zəka sahibi çıxış edəcək. Xatırladaq ki, kişi şahmatçılardan ibarət yığmamız Norveçdə keçirilən son Olimpiadada 2-5-ci yerləri bölüşüb.

İnanırıq ki, bütün turnirlərdə böyük nailiyyətlərə imza atan şahmatçılarımız doğma vətəndə də yüksək səviyyədə çıxış edərək Azərbaycanın adını uca tutacaqlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***